Tibb elmləri doktoru, kafedra professoru

hesabatı

*(Azərbaycan Tibb Universiteti)*

2013 – cü il 6 – 12 may tarixlərində İspaniyanın Elçe – Alikante şəhərlərində "Onkologiya – XXI əsr" mövzusunda XVII Beynəlxalq elmi konfransı, III İtaliya – Rusiya – İspaniya onkologiya və endokrinologiya cərrahiyyəsi elmi konfransı "XXI əsr əhalinin sağlamlığı" mövzusunda XVII Beynəlxalq elmi konfransı keçirilmişdir. Konfransda hər 3 ölkənin professor – həmkar heyəti iştirak etmişdir. Mayın 7 – də konfrans açıq elan edilmişdir. Konfrans ümumi 8 plenar sessiyadan ibarət olmuşdur.
Konfransın sonunda konfransda iştirak, sədrlik və çıxışama görə sertifikatla təltif olunmuşam.

Konfransda Rusiyanın, Qazaxıstanın, Özbəkistanın, İspaniyanın, İtaliyanın və Azərbaycanın nümayəndələri iştirak edirdi. Konfrans iştirakçıları Alikatne şəhərinin meri xanım Sonya Kastero Ramos tərəfindən qarşılanmışdır. Konfran günləri çox dolğun keçmişdir. Dokladların əksəriyyəti son dövrlərdə aktual olan onkoloji xəstəliklərə həsr edilmişdir. Çox vaxt xərçəng xəstəliyini "səhiyyə sisteminin böhran indikatoru" da adlandırırlar. Bir çox iştirakçılar öz çıxışlarında bunu qeyd edirdilər. Bu pasientlərin lazımı dərəcədə müayinə olunmaması, tibb müəssisələrinin kifayət qədər maliyyə vəsaiti ilə təmin olunmaması və s-dir. V.K.Skoroboqatovun proqram – məqsədli metodu əsasında onkoloji xidmətlərin inkişaf probleminin həll edilməsi ("Yüksək texnologiyalar beynəlxalq mərkəzi" Moskva şəh., Rusiya), İspaniyada onkoloji xəstəliklərin epidemiologiyası - *Juan Manuel Gasent* (Imed Hospital Levante de Beniodorm,University, Valencia, Spain).

Mən konfransda iştirakçı qismində iştirak etməklə yanaşı 9 may tarixində keçirilən 7 – ci plenar sessiyanın sədri olmuşam və "Azərbaycan Respublikasının qadınlarının reproduktiv sağlamlığı" mövzusunda çıxış etmişəm. Doklad 2011 – 2012 – ci il dövrü ərzində Azərbaycanın müxtəlif regionları üzrə statistik məlumatlara əsaslanmışdır. Dokladda reproduktiv sahənin işıqlandırılması ilə yanaşı onkoloji xəstəliklərin gedişi də əks olunmuşdur. İştirakçılar mövzuya maraq göstərmişdirlər. Xüsusilə müayinə, ginekoloji xəstəliklərin terapiyası, operativ doğum, eləcə də seçmə abort mövzusu ilə əlaqədar suallar verilmişdir.

Konfransın elmi materiallar toplusunda 3 məqaləm nəşr olunmuşdur:

«Uşaqlıq artımlarının xroniki iltibablı xəstəliyi olan xəstələrdə maqnit terapiyasının istifadəsi zamanı kliniko – laborator göstəricilərin dinamikası»;

«Yumurtalıqların polikistoz sindromu olan yeniyetmə qızlarda UTROJESTAN preparatının istifadəsinin kliniki təcrübəsi»;

«Vaxtından qabaq doğuş təhlükəsi olan hamilələrin aparılma taktikası».

7 may tarixində konfrans təntənəli açılışından sonra proqram üzrə Alikante və Valensiya şəhərlərinə dolğun ekskursiya olmuşdur.

Konfrans zamanı çoxlu bir çox sahələrin mütəxəssisləri ilə, eləcə də Avropanın ən yaxşı klinikalarından biri olan IMED ilə tanışlıqlar olmuşdur.

Mən "Əhalinin sağlamlığı - XXI" XVII Beynəlxalq elmi konfransda iştirak etməmə imkan yaratmış Azərbaycan Prezidenti yanında Elmin İnkişafı fonduna, onun bütün əməkdaşlarına, eləcə də sədr E.Babayevə öz təşəkkürümü bildirirəm.

N.M. Kamilova

22.05.2013.